## Təəssüf

Sənin buludlarından
Başıma qar yağardı.
O qədər qar yağdı ki,
Saçım tamam ağardı.

Durub üzü səmaya
Saatlarla baxardım…
Xəstə idim, sevirdim,
Təəssüf tez sağaldım.

## Məqam

Getdin, amma sənin hərarətini,
Hələ də saxlayan yataq kimiyəm.
Titrəyir vücudum, əsir bədənim,
Quşu təzə uçmuş budaq kimiyəm.

Hərdən öz-özümə pıçıldayıram:
Ürəyim, kirmişcə daral, keçibdir…
Ruhum dalğalanır, göləm elə bil,
İçimdən indicə maral keçibdir.

## Ərə gedən qız

Gözüm öyrənmişdi, eyvanınızda
Şəritdə görərdim donunu hərdən.
Don xəbər verərdi incə bir qızdan,
Mənsə boğulardım gizlin qəhərdən.

Axır bu işin də bildim sonunu,
Bu fani dünyanın hər işi kimi,--
Dünən yad şəritdə gördüm donunu,
Ovlanmış bir maral dərisi kimi.

## Gecə mənzərəsi

Sorağı qəlirdi könüldən tək-tək
Köhnə arzuların, köhnə muradın.
Dişi yalquzağın ulartısı tək
Gedirdi zülmətə bürünmüş qadın.

Elə bil çöllərin pərisi idi,
Gecə də təkcəydi, qadın da təkcə.
Erkək canavarın dərisi idi
Əyninə geydiyi tüklü gödəkcə.

## İki vətən - iki qürbət

İşıq içdin, zülmət yedin,
Onlardan pay verdin mənə.
Sən gedəndə getdim dedin
Bu vətəndən o vətənə.

Ürəklərdə qalan duman
Şişir, sonra ürək dolur.
Vətən iki olan zaman
İkisi də qürbət olur.

*İmir Məmmədli*



## Tərsinə

Oturmuşam özüm üçün,
Xəyallarım uzaqdadı.
İsti evin dəyəri də
İstidə yox, sazaqdadı.

Ürəyimdə olan şeylər
Həm də mənim çölümdədi.
Ömrün məğzi, mənası
Ömürdə yox, ölümdədi.

## Allahı görmək eşqinə

Ömür bəlkə ölümdü,
Bəlkə indi ölmüşük?
Bəlkə diri olanda
Biz Allahı görmüşük?

Daha zaman tez keçir,
Gün qədərdir bir ilim.
Allahı görmək üçün
Gərək bir də dirilim.